# Görmə imkanları məhdud şəxslər üçün yeni layihələrin təqdimatı

**Azərbaycan Gözdən Əlillər Cəmiyyəti tərəfindən bu qəbildən həssas qrupların aktiv həyata inteqrasiyası istiqamətində məqsədyönlü, mühüm əhəmiyyət kəsb edən səmərəli layihələr həyata keçirilir.**

Cəmiyyət 3 dekabr Beynəlxalq Əlillər Günü paytaxtın Nizami Kino Mərkəzində növbəti layihələrini - "Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi praqramlar ilə idman, incəsənət və xalq sənəti növlərinin öyrədilməsinə yardım göstərilməsi" layihəsi çərçivəsində hazırlanmış "Nəsimi" filminin tiflo şərhli versiyasını, "Görmə İmkanları Məhdud Şəxslər üçün Müyəssər Formatlı nəşrlərin hazırlanması" layihəsi çərçivəsində "Bunları bilmək istəyirəm" illüstrasiyalı intellektual ensklopediyanı gözdən əlil vətəndaşlara, ictimaiyyətə təqdim etdi. Böyük maraqla qarşılanan təqdimat mərasimində nazirliklərin, qeyri-hökumət təşkilatlarının, ayrı-ayrı kütləvi informasiya vasitələrinin nümayəndləri, gözdən əlillər cəmiyyətinin üzvləri, qonaqlar iştirak edirdi.

Tədbirdə ölkəmizin uğurlu sosial-iiqtisadi inkişafı, əldə olunun yüksək nəticələri, rifah halının yaxşılaşmasnı xüsusi vurğulayan Azərbaycan Gözdən Əlillər Cəmiyyətinin sədri Səmiyar Abdullayev bildirdi ki, Azərbaycan Prezidentinin sərəncamı ilə dahi şairimiz İmadəddin Nəsiminin 650 illik yubileyilə əlaqədar 2019-cu il "Nəsimi ili" elan edildiyi üçün cəmiyyətimiz Brayl Nəşrləri İnformasiya Resurs Mərkəzi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanfilm" kinostudiyasının istehsalı olan "Nəsimi" filminin tiflo şərhlə yeni versiyasını hazırlamışdır. Filmin tiflo şərhli versiyası bütün gözdən əlil vətəndaşların yararlanması üçün müyəssər formatlı səsləndirmə ilə nəzərdə tutulmuşdur. "Gormə İmkanları Məhdud Şəxslər üçün Müyəssər Formatlı Nəşirlərin hazırlanması"layihəsi çərçivəsində tərtib olunan "Bunları bilmək istəyirəm" illüstrasiyalı intellektual ensiklopediya da gözdən əlilllərin təmənnasız istifadəsinə verilir. Onu da qeyd edim ki, ensiklopediyada təsvir olunan heyvan şəkilləri ilk dəfə qabartma üsulla nəşr edilibdir. Bu qəbildən insanlara təbiətlə tanışlığında yardımçı olacaq kitab Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun maliyyə dəstəyi ilə Azərbaycan Əlil Ziyalılar İctimai Birliyinin sifarişi əsasında AGƏC-nin Brayl Nəşrləri İnformasiya Resurs Mərkəzi tərəfindən hazırlanmışdır. Ensiklopediya brayl əlifbası və qabarıq nöqtəvi illüstrasiya şəklində hazırlanan kitab 12 cilddən, bir illüstrasiyalı və bir iri şriftli əlavə hissələrdən ibarətdir. 12 ton olmaqla ümumilikdə 100 tirajla nəfis tərtibatla çap olunan kitab respublikada fəaliyyət göstərən kitabxanalara, sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 saylı xüsusi internat məktəbinə və Yetkinlik yaşına çatmamış görmə imkanları məhdud uşaqlar üçün sosial bərpa mərkəzinə təmənnasız veriləcəkdir.







Ölkəmizdə 50 minə yaxın gözdən əlil şəxsin olduğunu bildirən S.Abdullayev onların hərtərəfli dövlət qayğısı ilə əhatə olunduğunu vurğuladı. Qeyd etdi ki, möhtərəm prezidentimiz tərəfindən sosial sahədəki problemlərin həlli istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Eyni zamanda, əlillərin sosial müdafiəsi gücləndirilir, təqaüd və müavinətləri artılırır, mənzilərlə təminatları diqqət mərkəzində saxlanılır. Xüsusən, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu sahəyə qayğısını minnətdarlıqla vurğulamaq lazımdır. Heydər Əliyev Fondu tərəfindən çox böyük layihələr həyata keçirilir. Son dövrlər cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə yeniləşməyə hesablanmış başlanan islahatlar əlillərin də rifahına əlavə stimul vermişdir. Gözdən əlillər cəmiyyəti olaraq bizim fəaliyyətimizdə ən böyük dəstəyi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi göstərir. Xüsusən, nazirlikdə kadr dəyişikliyindən sonra bizə olan münasibət daha da yaxşılaşmışdır. Digər nazirliklərlərlə də əməkdaşlığımızdan razıyıq. Bu gün təqdim etdiyimiz layihələrin ərsəyə gəlməsində əməyi olanlara təşəkkürümü bildirirəm.

Tədbirdə çıxış edənlər belə layihələrin əhəmiyyətindən danışdılar, əlillərə, görmə imkanları məhdud şəxslərə diqqət və qayğı göstərməyin hər kəsin mərhəmət borcu olmasının vacibliyini vurğuladılar.

**Mustafa KAMAL,**
**"Respublika".**

Respublika.-2019.-6 dekabr.- S.6.